**Cəlil H.A.,**
**Dünyamalıyev N.N.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.67.57-65**
**UOT: 341**

# Silahlı münaqişə zamanı ətraf mühitin mühafizəsinin beynəlxalq-hüquqi problemləri

**Xülasə:** Silahlı münaqişə və müharibə insan fəaliyyətinin bütün sahələrinə, eləcə də, onu əhatə edən ətraf aləmə təsir göstərir. Silahlı münaqişələr təkcə insanların həyat və sağlamlığına deyil, eyni zamanda münaqişə gedən ərazidəki flora və faunaya – bitki və heyvanat aləminə, su, torpaq və hava qatına, bir sözlə, ekoloji sistemə mənfi təsir göstərir. Ekoloji sistemdə yaranan pozuntular isə bəşəri problemlərə yol açır.

Bütün bunlara görə silahlı münaqişə dövründə ətraf mühitin qorunması beynəlxalq ümumi hüququn iki sahəsi - beynəlxalq humanitar hüquq və beynəlxalq ekologiya hüququ üçün aktual məsələdir. Ətraf mühitin beynəlxalq hüquqi mühafizəsi üçün bir sıra beynəlxalq hüquqi sənədlər qəbul edilmişdir. Məqalədə silahlı münaqişələrin ətraf mühitə təsir formaları, ətraf mühitin mühafizəsini təmin edən beynəlxalq-hüquqi sənədlərin xüsusiyyətləri təhlil edilmişdir.

**Açar sözlər:** müharibə; silahlı münaqişə; ətraf mühit; beynəlxalq humanitar hüquq; beynəlxalq ekologiya hüququ.

**Giriş.** İnsanın bütün fəaliyyəti ətraf mühitə bu və ya digər şəkildə təsir göstərir. Müharibə və digər silahlı münaqişələr bunların içərisində ən güclüsüdür.

Müharibənin ətraf mühitə vurduğu zərərin miqyası aydındır. Buna görə də, bu sahədə beynəlxalq hüquqi tənzimetmənin təhlil edilməsi olduqca zəruridir. Müharibənin ətraf mühitə təsiri özünü müxtəlif mərhələlərdə və formalarda göstərir. Belə ki, ətraf mühit müharibədən əvvəlki dövrdə, müharibə dövründə və müharibədən sonrakı dövrdə zərər görür. Müharibədən əvvəlki dövrdə ətraf mühitə vurulan zərər özünü silah sənayesinin fəaliyyəti ilə bağlı, müxtəlif silahların, xüsusilə də, radiasiyalı silahların, daşınması, saxlanması kimi hallarda büruzə verir. Lakin ətraf mühitə daha ağır zərər müharibə dövründə və ondan sonra vurulur.

Ermənistan 1988-ci ildən başlayaraq Azərbaycan torpaqlarının 20%-ni işğal etmiş, 30 ilə yaxın bir müddətdə şüurlu surətdə təbiətimizi məhv etməyə çalışmışdır. Düşmən onilliklər ərzində işğal etdiyi əraziləri, yalnız Azərbaycanın deyil, həm də beynəlxalq birliyin nəzarətindən kənarda saxlaya bilmişdir. Dünya birliyinin nəzarətindən kənarda saxlanan ərazilərdə ermənilər qanunsuz, beynəlxalq konvensiyalara zidd fəaliyyətlə, o cümlədən təbii sərvətlərin talan olunması, su ehtiyatlarının çirkləndirilməsi, flora və faunanın məhv edilməsi ilə məşğul olub, ərazi həm xarabazara, həm də cinayətkarlar yuvasına çevrilmişdir.

Uzun sürən işğaldan sonra Şanlı Azərbaycan Ordusu cəmi 44 günə Ermənistan ordusunu darmadağın edərək torpaqlarımızı azad etdi. Lakin yağı düşmən işğaldan azad etdiyimiz ərazilərdə özlərindən geriyə xarabalıqlar və ekoloji fəlakət qoyub gedib.

♦ **Cəlil Hafiz Afiq oğlu -** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı (Azərbaycan). E-mail: hafizcelil99@yahoo.com
**Dünyamalıyev Nurlan Nurəddin oğlu -** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı (Azərbaycan). E-mail: nurlandunyamaliyev99@gmail.com

Məhz buna görə də, müharibə və ətraf mühit əlaqəsinin müəyyən edilməsi, xüsusilə də, bizim üçün aktual bir məsələ - Ermənistan tərəfindən Azərbaycana qarşı törədilmiş digər cinayətlər ilə yanaşı ekoloji cinayətlərə görə məsuliyyətin müəyyən edilməsi üçün silahlı münaqişə dövründə ətraf mühitin mühafizəsinin beynəlxalq-hüquqi aspektlərinin təhlil edilməsi, ətraf mühitin qorunması ilə bağlı beynəlxalq hüquq normalarının nəzərdən keçirilməsi vacibdir.

**1. Müharibə və onun ətraf mühitə təsiri**

Ətraf mühitə müharibə dövründə həm hərbi əməliyyatların vasitəsi kimi, həm də müxtəlif silahların tətbiqi formasında zərər vurulur. Ətraf mühitin hərbi əməliyyatlarda bir vasitə kimi istifadə edilməsinin uzun tarixi vardır və bu üsul geniş yayılmışdır. Bu üsuldan ilk dəfə Roma ilə Karfagen arasında aparılan müharibədə istifadə edildiyi bilinir. Belə ki, romalılar karfagenliləri məğlub etmək üçün torpaqları şoranlaşdırma üsulundan istifadə etmişdilər.

Buraya süni yağış, tufan və s. kimi təbiət hadisələrinin yaradılması, su axarlarının istiqamətinin dəyişdirilməsi və s. aiddir. Ətraf mühitə mənfi təsir göstərən digər klassik metodlar da var, məsələn, meşələri və bitki örtüyünü məhv etməklə düşmənin gizlənməsinin qarşısını almaq, əkilmiş torpaqları yandıraraq məhv etmək, bəndləri və su kanallarını açaraq və ya məhv etməklə daşqınlara və sellərə səbəb olmaq və su ehtiyatlarını zəhərləmək.

Müasir dövrdə texnoloji inkişaf müharibə dövründə ətraf mühitə təsirin yeni şəkillərini meydana gətirmişdir. Bu çərçivədə uyğun atmosfer şəraiti təmin edərək duman, yağış, fırtına, həddindən artıq soyuq və ya isti iqlimlər yaratmaq; Dəniz sahələrində güclü dalğalar yaratmaq və süni yollarla zəlzələlərin baş verməsi kimi bəzi texnoloji metodları tətbiq edərək ətraf mühitdən müharibə vasitəsi kimi istifadə etmək mümkündür. Bu kontekstdə, Vyetnam müharibəsi (1965-1973) müharibə metodlarının və alətlərinin formalaşmasında ətraf mühitin müəyyən bir rol oynadığı mühüm bir nümunə olaraq ortaya çıxır. Müharibə əsnasında Amerika Ordusu, vyetnamlıların meşələrdə gizlənməməsi üçün təyyarələrdən meşələrə minlərlə ton "herbisid" adlı yarpaq tökücü kimyəvi maddə püskürtdü. Zəhərli xüsusiyyətləri olan bu mayelər bölgədəki ekosistemə uzunmüddətli təsirlər göstərmiş, geniş eroziyaya və milyonlarla hektar meşə daxil olmaqla bütün bitki örtüyünün məhv olmasına səbəb olmuşdur. Meşələrin məhvi ilə bitki örtüyü və meşə ekosistemindəki heyvan varlığı da yox olmuşdur. Müharibə dövründə ətraf mühitə zərər vurulmasının digər forması müxtəlif silahlardan istifadə edilərkən ətraf mühitin zərər görməsidir. Sözsüz ki, müharibədə istifadə edilən bütün silahlar ətraf mühitin bu və ya digər komponentində olur. Bu zaman silahlardan istifadə edilməsi ətraf mühitə təsirsiz ötüşmür. Müharibə dövründə istifadə edilən silahların növlərindən asılı olaraq ətraf mühitə dəyən zərərin xarakteri də müxtəlif olur. Belə ki, kütləvi qırğın silahlarına aid edilən nüvə silahı, kimyəvi və bioloji silahların ətraf mühitə vurduğu zərər daha ağır olur, bu zərərlərin aradan qaldırılması isə uzun vaxt və maliyyə resursları tələb edir. Bəzən isə bu zərərləri aradan qaldırmaq, ümumiyyətlə, mümkün olmur. Eyni şəkildə, kütləvi qırğın silahı olan nüvə, kimyəvi və bioloji silahlar coğrafi təsir bölgəsindəki bütün heyvan növlərini və bitki örtüyünü məhv edərək ekosistemdə qalıcı korlanmaya səbəb olur. Xirosima və Naqasakiyə atılan atom bombaları da hücum anında və sonra ölümlərlə yanaşı, meydana gələn radioaktiv çirklənmə ilə ekoloji fəlakətə səbəb oldu.

Digər silah növləri də ətraf mühitə təsirsiz ötüşmür, lakin onlar kütləvi qırğın silahlarına nisbətən daha az zərər vurur.

Digər tərəfdən, düşmənin mübarizə qabiliyyətini aradan qaldırmaq üçün hədəf alınan sənaye obyektlərinin məhv edilməsindən qaynaqlanan çirklənmə bütün təbii həyat üçün təhlükə yaradır.

Hərbi məqsədlərə uyğun olaraq öncədən təyin olunan strateji əhəmiyyətli hədəflərə edilən hücumlarda həqiqi zərər çəkən ətraf mühit olur.

Silahlı münaqişələrin maliyyələşdirilməsi üçün lazım olan təbii qaynaqları həddindən artıq istehlak etməklə də təbii mühiti məhv etmək və ya zədələmək mümkündür.

Ermənistanın Azərbaycana hərbi təcavüzü ətraf mühitə də zərərsiz ötüşməyib. Belə ki, istər Birinci Qarabağ müharibəsi dövründə, istər 30 ilə yaxın davam edən işğal dövründə, istərsə də İkinci Qarabağ müharibəsi dövründə Ermənistan tərəfindən Azərbaycan Respublikasının təbiətinə, bioloji müxtəlifliyinə, su hövzələrinə, ümumilikdə işğal altında olan ərazilərin ekologiyasına ciddi ziyan vurulmuş, ətraf mühit məhv edilmiş və ciddi zərər görmüşdür. Ermənistan silahlı qüvvələrinin hərbi fəaliyyəti və qadağan olunmuş silahlardan istifadəsi nəticəsində ətraf mühit fiziki və kimyəvi çirklənməyə məruz qalmaqla yanaşı, burada mövcud olan müxtəlif nadir bitki və heyvan növləri məhv edilmiş, flora və faunaya külli miqdarda ziyan vurulmuşdur.

Təmiz su mənbələrinin kimyəvi çirklənməsi nəticəsində çay və göllərdə özü-özünü tənzimləmə prosesi dayanıb, nəticədə, su hövzələri bütün canlılar üçün zərərli, ölü bir zonaya çevrilməkdədir.

BMT Baş Assambleyası tərəfindən hələ 2006-cı ildə qəbul edilmiş “Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət” adlı Qətnaməsində işğal altında olan Azərbaycan torpaqlarında törədilmiş yanğınların regionun ekoloji təhlükəsizliyinə təsirinin qiymətləndirilməsi məsələsi qaldırılmışdı.

Bununla yanaşı, 2016-cı ildə Avropa Şurası Parlament Assambleyası tərəfindən qəbul olunan Azərbaycanın sərhədyanı rayonlarının sakinlərinin qəsdən sudan məhrum edilməsi ilə bağlı 2085 nömrəli qətnamədə Ermənistan silahlı qüvvələrinin sözügedən regiondan dərhal çıxarılması, müstəqil mühəndis və hidroloqlar tərəfindən yerində təhqiqat aparılmasının təmin edilməsi tələb olunub.

Bu müddət ərzində Ermənistan tərəfindən Azərbaycan Respublikasının işğal altında saxlanılan ərazilərində təbii sərvətlər talan edilmiş, 163 faydalı qazıntı yatağı, o cümlədən, qızıl, civə, mis, qurğuşun, sink, daş kömür yataqları, meşə örtüyü, nadir ağaclar və digər sərvətlər qanunsuz istismara məruz qalıb.

Ermənistan Respublikası, həmçinin, İkinci Qarabağ müharibəsi dövründə də ətraf mühitə zərər vuran fəaliyyətinə davam etmiş, Şuşa meşələrində zəhərli və çətin söndürülən maddələrdən istifadə etməklə qəsdən yanğınlar törədərək nadir meşə örtüyünü məhv etmişdir.

**2. Ətraf mühitin mühafizəsinin beynəlxalq-hüquqi aspektləri**

Müharibə dövründə ətraf mühitin mühafizəsi ilə bağlı beynəlxalq hüquq normaları öz təsbitini beynəlxalq müqavilələrdə və adətlərdə tapmışdır.

Bu sahədə mövcud olan müqavilələrdə ətraf mühitin mühafizəsi dolayı olaraq və ya birbaşa təsbit olunmuşdur. Birinci müqavilələr beynəlxalq humanitar hüquq (müharibə qanunları və adətləri), ikinci müqavilələr isə beynəlxalq ekologiya hüququna aid olan müqavilələrdir. Bu mənada qeyd etmək olar ki, müharibə dövründə ətraf mühitin mühafizəsi ilə bağlı normalar hələ beynəlxalq ekologiya hüquq münasibətlərindən öncə yaranmışdır.

Müharibə dövründə ətraf mühitin beynəlxalq humanitar hüquq çərçivəsində mühafizəsi. Müharibə dövründə ətraf mühitin mühafizəsini nəzərdə tutan ilk beynəlxalq humanitar hüquq norması 1868-ci il Sankt-Peterburq Bəyannaməsində təsbit edilmişdir. Bu sahədəki digər beynəlxalq sənədlərə 1907-ci il “Quru müharibələrinin adət və qanunları haqqında” IV Haaqa Konvensiyasını, 17 iyun 1925-ci il “Boğucu, zəhərli və digər belə qazların və bakterioloji

vasitələrin müharibədə tətbiqinin qadağan olunması haqqında" Protokolu, 1949-cu il "Müharibə zamanı mülki şəxslərin müdafiəsinə dair" IV Cenevrə Konvensiyasını, 10 aprel 1972-ci il "Bakterioloji (bioloji) və zəhərli (toksinli) silahların işlənib hazırlanması, istehsal olunması və ehtiyata toplanmasının qadağan olunması və onların məhv olunması haqqında" Konvensiyanı, 10 oktyabr 1980-cı il tarixli "Hədsiz zərərli sayıla bilən və seçimsiz nəticələrə malik ola bilən müəyyən adi silah növlərinin istifadəsinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında" Konvensiyanı aid etmək olar.

Müharibə dövründə ətraf mühitin beynəlxalq ekologiya hüququ çərçivəsində mühafizəsi. Müharibə dövründə ətraf mühitin mühafizəsi sahəsində iki beynəlxalq müqaviləni qeyd etmək olar: 10 dekabr 1976-cı ildə BMT-nin himayəsi altında qəbul edilən "Ətraf mühiti dəyişikliyə uğradan vasitələrdən hərbi və ya istənilən digər düşmən məqsədlərlə istifadə olunmasının qadağan edilməsi haqqında" Konvensiyanı və Cenevrə Konvensiyalarına I Əlavə Protokolu.

Silahlı münaqişələr zamanı ətraf mühitin qorunmasına dair xüsusi müddəaları ehtiva edən ilk beynəlxalq tənzimləmə, Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən 10 dekabr 1976-cı il tarixində qəbul edilən və 18 May 1977-ci il tarixində qüvvəyə minən "Ətraf mühiti dəyişikliyə uğradan vasitələrdən hərbi və ya istənilən digər düşmən məqsədlərlə istifadə olunmasının qadağan edilməsi haqqında" Konvensiya (İngilis dilində qısaldılmış ENMOD) idi [6].

Vyetnam müharibəsində ətraf mühitin strateji və taktiki rolu və məruz qaldığı dağıntı ilə bağlı bu tənzimləmədə, ətraf mühitə dəyən zərərin insan həyatına təsirləri vurğulandı. Ətraf mühitin qorunmasının insanların yaşaması üçün bir zərurət olaraq müəyyən olunduğu Konvensiya, ətraf mühitdə dəyişikliklər edərək ətraf mühitin müharibə vasitəsi olaraq istifadə edilməsinin qarşısını almaq məqsədi daşıyır.

Həmin beynəlxalq hüquqi sənədin 1-ci maddəsi iştirakçı dövlətlərdən ətraf mühitə geniş, uzunmüddətli və ya ciddi təsir göstərən vasitələrdən hər hansı iştirakçı dövlətə ziyan və ya zərər yetirilməsi üçün hərbi və ya digər düşməncəsinə istifadədən çəkinməyi tələb edir. Dövlətlərin bu kimi vasitələrdən istifadəsi qadağan edilməklə yanaşı, 1(2)-ci maddəyə əsasən, heç bir iştirakçı dövlət həmin maddədə nəzərdə tutulan müddəaları pozan hər hansı dövlətə və ya beynəlxalq təşkilata yardım göstərməməli və onları buna sövq etməməlidir.

Digər tərəfdən, ilk maddədə qadağan edilən vasitələrə ikinci maddədə aydınlıq gətirilmişdir. Qadağan edilən vasitələrə yerin dinamikası, tərkib və ya strukturuna, litosferə, hidrosferə və atmosferə və ya kosmik fəzaya təbii prosesləri qabaqcadan idarə etmək yolu ilə dəyişiklik üçün nəzərdə tutulan hər hansı vasitə aid edilir.

Konvensiyada silahlı münaqişə və ya müharibə ifadələrindən istifadə edilməsə də, daha geniş məna kəsb edən "hərbi və ya istənilən digər düşmən məqsədlər" ifadəsi istifadə olunur. Sözügedən metodların hücum və ya müdafiə məqsədləri üçün olması vacib deyil. Ancaq hər halda hərbi və ya düşmən xarakterli olmalıdır.

Bununla yanaşı ENMOD silahlı qarşıdurmalarda ətraf mühitə zərərin yalnız bir tərəfini tənzimləyir və ətraf mühiti dəyişdirmək üçün bütün texnikaları qadağan etmir. Tətbiq olunan qadağalar bu cür texnikaların hərbi və düşmənçilik məqsədləri ilə istifadəsi ilə məhdudlaşdırılmış və müəyyən şərtlər yerinə yetirildiyi təqdirdə bu üsullardan istifadə edilə biləcəyi qəbul edilmişdir. Belə ki, 3(1)-cü maddəyə əsasən, Konvensiya dinc məqsədlə ətraf mühitə təsir vasitələrindən istifadə etməyə mane olmur.

Beləliklə, bu üsullar ilə bağlı araşdırma və inkişaf fəaliyyətləri, eləcə də bu üsulların sınanması qadağan edilməyib. Digər tərəfdən, ENMOD ilə ətraf mühitə birbaşa zərər verən

davranışlar qadağan edilmir, bir müharibə üsulu olaraq ətraf mühitin şüurlu şəkildə dəyişdirilməsi qadağan edilir. Dolayısı ilə, ENMOD tərəfindən təmin edilən qorunma, ətraf mühitə qəsdən zərər verməklə məhdudlaşır. Bu halda, təsirlərini bilmədən bu üsullardan istifadə edilməsi və nəticədə yaranan zərərlər qadağan çərçivəsində nəzərə alınmayacaqdır. Bundan əlavə, kütləvi qırğın silahlarının və ya adi silahların istifadəsi nəticəsində yarana biləcək qaçınılmaz zərərlər qadağanın əhatə dairəsinə daxil edilmir.

Digər tərəfdən, Konvensiyada göstərilən ətraf mühitin dəyişdirilməsi üsullarının qadağan çərçivəsində qəbul edilməsi üçün, "geniş, uzunmüddətli və ya ağır ziyan" olaraq müəyyən bir həddə çatmaları şərtdir. Maddənin məzmunundan, konkret halda bu üç şərtdən hər hansı birinin yerinə yetirilməsinin yetərli olduğu başa düşülür. Bu kimi müddəanın 1949-cu il Cenevrə Konvensiyalarına I Əlavə Protokoldan daha güclü qorunma təmin etdiyi aydındır. Lakin bu ifadələrdən nə başa düşülməsi lazım olduğu Konvensiyanın mətnində aydınlaşdırılmamışdır. Bununla belə, Konvensiyanın şərhi haqqında sazişə müvafiq olaraq "geniş" termini bir neçə yüz kvadrat kilometr ərazini əhatə etməyi, "uzun sürən" termini bir neçə ay (üç aya kimi), "ciddi" termini isə insan həyatının normal axınını pozan təbii, iqtisadi ehtiyatlara və ya başqa əmlaka mühüm ziyan vurulmasını nəzərdə tutur

Bununla belə, göstərilən üsulların istifadəsi yalnız digər dövlətlərə münasibətdə qadağandır və hər hansı bir dövlətin öz ərazisi, Konvensiyaya tərəf olmayan başqa bir dövlət və ya açıq dənizdə bu üsullardan istifadəsinin qadağan edilməsinə dair hər hansı müddəa yoxdur [8].

Nəhayət 4-cü maddəyə əsasən, hər bir iştirakçı dövlət, həmin Konvensiya müddəalarına zidd olan hər hansı fəaliyyətin qadağan edilməsi və aradan qaldırılması üçün özünün konstitusiya prosedurlarına müvafiq olan zəruri hesab etdiyi tədbiri görməyi öhdəsinə götürmüşdür.

5-ci maddəyə görə isə, iştirakçı dövlətlər Konvensiyanın həyata keçirilməsi kontekstində aralarında yarana biləcək problemləri ilk növbədə məsləhətləşmə və əməkdaşlıq yolu ilə həll edəcəklər.

Silahlı münaqişələr zamanı ətraf mühitin qorunması ilə bağlı digər bir tənzimləmə 1949-cu il Cenevrə Konvensiyalarına I Əlavə Protokoldur. Əslində, silahlı münaqişələr zamanı mülki şəxslərin qorunması ilə bağlı normaları özündə cəmləşdirən 1949-cu il Cenevrə Konvensiyasına ətraf mühitin mühafizəsi ilə bağlı normalar daxil edilməmişdi. Bununla yanaşı, mövcud çatışmazlıqları aradan qaldırmaq üçün ENMOD-dan sonra qəbul edilmiş I nömrəli Əlavə Protokolda silahlı qarşıdurmalarda ətraf mühitin qorunması üçün iki norma müəyyən edilmişdir. Bu müddəalardan birincisi olan 35-ci maddəyə əsasən, hər hansı bir silahlı münaqişədə, münaqişə tərəflərinin döyüş üsullarını və döyüş vasitələrini seçməsi imkanı qeyri-məhdud deyil.

Təbii mühitə geniş miqyaslı, uzunmüddətli və ciddi ziyan vurmaq məqsədi güdən və ya labüd surətdə buna səbəb olan müharibə aparılması üsullarının və vasitələrinin tətbiqi qadağandır (I Ə. P. mad. 35, bənd 3).

Protokolun 55-ci maddəsinə əsasən isə, hərbi əməliyyatlar zamanı təbii mühitin geniş, uzunmüddətli və ciddi ziyandan mühafizəsinə qayğı göstərilir. Belə mühafizəyə təbii mühitə ziyan vurmaq məqsədi güdən və ya bu cur ziyan vuracağı və nəticədə əhalinin sağlamlığına və ya sağ qalmasına zərər yetirəcəyi gözlənilən hərbi üsul və vasitələrdən istifadənin qadağan edilməsi daxildir.

Təbii mühitə ziyan vurmağın repressali vasitəsinə çevrilməsi qadağandır (I Ə. P. mad. 55).

Maddənin mətnindən də anlaşıldığı kimi, müddəanın əsas məqsədi insanları silahlı münaqişələrin mənfi nəticələrindən qorumaqdır. Bu məqsədlə, ətraf mühitə birbaşa ziyan vurmaqla

yanaşı, proqnozlaşdırılan zərərlərə səbəb olacaq müharibə metodlarına və vasitələrinə müraciət etmək də qadağan edilir.

Bununla belə, Protokolda geniş, uzunmüddətli və ağır zərərlərdən nəyin başa düşülməsini göstərən heç bir açıqlama yoxdur.

Beynəlxalq Qızılxaç Komitəsi (International Committee of the Red Cross/ICRC) tərəfindən Protokol müddəalarına dair hazırlanan şərh mətnində adı çəkilən anlayışların açıqlanmasına cəhd edilmişdir [9]. Buna görə, "geniş" ifadəsindən, bir neçə yüz kvadrat kilometrdən az bir coğrafi ərazi, "uzunmüddətli" ifadəsindən on il və ya daha çox müddət, "ağır zərər" ifadəsindən isə mülki əhalinin həyatda qalması üçün əhəmiyyətli risklər yaradan və ya ciddi sağlamlıq problemlərinə səbəb olan hallar başa düşülməlidir. Bu halda, axtarılan şərtlərin, xüsusən də uzun müddətli zərər şərtinin münaqişə anında yerinə yetməyinin mümkün olmadığı görülür. Bu, Protokolun silahlı münaqişə anı üçün qoruma təmin etməkdən uzaq olduğunu göstərir.

Həmçinin, ENMOD-dan fərqli olaraq, geniş, uzunmüddətli və ağır zərər şərtlərinin birlikdə baş verməsi tələb olunur. Halbuki, bu miqyaslı bir zərərin konkret bir hadisə zamanı birlikdə baş verməsi demək olar ki, qeyri-mümkündür [10].

Digər tərəfdən, I saylı Əlavə Protokolda nəzərdə tutulan qoruma beynəlxalq silahlı münaqişələrlə məhdudlaşdırılmışdır. Halbuki, xüsusilə Soyuq Müharibədən sonrakı dövrdə beynəlxalq olmayan silahlı münaqişələr geniş yayılmışdır.

Adi silah növləri haqqında 1980-ci il Konvensiyasına əlavə olunmuş "Yandırıcı silahların tətbiqinə qoyulan qadağalar və məhdudiyyətlər haqqında" Protokolda (III Protokol) meşələrin və bitki örtüyünün digər növlərinin yandırıcı silahların tətbiqi ilə hücum obyektinə çevrilməsi qadağan olunmuşdur [1].

Müharibə dövründə ətraf mühitin mühafizəsi məsələləri həm də beynəlxalq adət normaları ilə tənzimlənir. Belə ki, silahlı münaqişələr hüququ kontekstində, xüsusən də son əsrdə əldə edilmiş irəliləyişlər nəticəsində beynəlxalq adət hüququ halına gələn və silahlı münaqişələr hüququnun əsasını təşkil edən müəyyən qaydalar formalaşmışdır. Bunlar da, Beynəlxalq Ədalət Məhkəməsi tərəfindən qeyd edilən dörd prinsipə əsaslanır: hərbi zərurət, mütənasiblik, ayrı-seçkiliyin qadağan edilməsi və humanitarizm (humanistlik).

**Nəticə**. Göründüyü kimi insan həyatı üçün xüsusi əhəmiyyət kəsb edən ətraf mühitin mühafizəsi problemləri müharibə dövründə xüsusilə də aktuallaşır. Məhz bu səbəbdən bununla bağlı beynəlxalq sənədlər qəbul edilmişdir. Həmçinin, bu problem beynəlxalq ümumi hüququn iki müstəqil sahəsi – beynəlxalq humanitar hüquq və beynəlxalq ekologiya hüququ ilə tənzimlənir.

## Biblioqrafiya


1. Ahmet Hamdi Topal. Silahlı Çatışmalarda Doğal Çevrenin Korunması. Milletlerarası Hukuk ve Milletlerarası Özel Hukuk Bülteni. Milletlerarası hukuk ve milletlerarası münasebetler araştırma ve uygulama merkezi. Yıl: 29 / Sayı 1-2 / 2009
2. Hüseynov L.H. Beynəlxalq hüquq. - Bakı: Qanun. 2012. - 368 s.
3. Hüseyin Pazarcı Prof. Dr. Uluslararası hukukta çevrenin savaş sırasında korunması // Ankara Üniversitesi SBF Dergisi. 1992; 47(01)

4. Məmmədov R., Məmmədov X. Müasir beynəlxalq hüquq nöqteyi-nəzərindən Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın Qanunsuz və hüquqa zidd fəaliyyəi. - Bakı: MM-S, 2017. - 260 s

5. Tarık Ak. Günümüzün savaşlarında çevre konusunda ilişkin bir değerlendirme. İstanbul Aydın Üniversitesi Dergisi 32, (2016) (17-26)

6. Final Report to the Prosecutor by the Committee Established to Review the NATO Bombing Campaign Against the Federal Republic of Yugoslavia, Parag. 15, 17, 25. URL: [Elektron resurs]. http://www.icty.org/sid/10052. (müraciət tarixi: 05.05.2022).

7. Phoebe Okowa. "Environmental Justice in Situations of Armed Conflicts', in Environ-mental Law and Justice in Context, Ed. Jonas Ebbesson & Phoebe Okowa, Cambridge University Press, Cambridge, 2009.

8. Report of the Conference of Committee on Disarmenent, Understanding Relating to Article I of ENMOD, U.N. GAOR, 31rd Sess. Supp. No. 27 A/31/27. [Elektron resurs]. URL: http://www.icrc.org/ihl.nsf/FULL/4607OpenDocument (müraciət tarixi: 05.05.2022).

9. Sandoz, C. Swinarski, B. Zimmermann, Commentary on the Additional Protocols of 8 June, 1977, to the Geneva Conventions of 12 August, 1949, at 416-417, 1987'den nak-leden Roman REYHANI, "Protection of the Environment During Armed Conflict, Mis-souri Environmental Law and Policy Review, Sayı 14, 2007.

10. The Convention on the prohibition of Military or Any Other Hostile Use of Environmental Modification Techniques (ENMOD), G.A. Res. G.A. Res. 31/72, U.N. GAOR 31st Sess., Supp. No. 39, U.N. Doc. A/31/39 (Dec. 10, 1976).

**Jalil H.A.,**
**Dunyamaliyev N.N.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.67.57-65**
**UDC: 341**

## International legal problems of environmental protection during armed conflict

**Abstract**: Armed conflict and war affect all spheres of human activity and the environment that encompasses it. Armed conflicts have a negative impact not only on human life and health, but also on the flora and fauna of the conflict zone - plants and animals, water, soil and air, in short, on the ecological system. Violations in the ecological system lead to human problems.

Because of all this, environmental protection during armed conflict is a topical issue for two areas of general international law - international humanitarian law and international environmental law. A number of international legal instruments have been adopted for the international legal protection of the environment. The article analyzes the effects of armed conflicts on the environment, the features of international legal documents that ensure environmental protection.

**Keywords:** war; armed conflict; environment; international humanitarian law; international environmental law.

♦ **Jalil Hafiz Afig oglu –** Master student of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan (Azerbaijan). E-mail: hafizcelil99@yahoo.com
**Dunyamaliyev Nurlan Nureddin oglu -** Master student of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan (Azerbaijan). E-mail: nurlandunyamaliyev99@gmail.com

## References


1. Ahmet Hamdi Topal. Silahlı Çatışmalarda Dogal Çevrenin Korunması. Milletlerarası Hukuk ve Milletlerarası Ozel Hukuk Bulteni. Milletlerarası hukuk ve milletlerarası munasebetler arastırma ve uygulama merkezi. Yıl: 29 / Sayı 1-2 / 2009 (in Turkish).
2. Huseynov L.H. International Law. Baku, Ganun Publ., 2012, 368 p. (in Azerbaijani).
3. Huseyin Pazarcı Prof. Dr. Uluslararası hukukta cevrenin savas sırasında korunması. Ankara Üniversitesi SBF Dergisi. 1992; 47(01) (in Turkish).
4. Mammadov R., Mammadov H. Unlawful and illegal activities of Armenia in the occupied territories of Azerbaijan from the point of view of modern international law. Baku, MM-S Publ., 2017, 260 p. (in Azerbaijani).
5. Tarık Ak. Gunumuzun savaslarında cevre konusunda iliskin bir degerlendirme. İstanbul Aydın Universitesi Dergisi 32, (2016) (17-26) (in Turkish)
6. Final Report to the Prosecutor by the Committee Established to Review the NATO Bombing Campaign Against the Federal Republic of Yugoslavia, Parag. 15, 17, 25. Availabale at: http://www.icty.org/sid/10052 (accessed: 05.05.2022).
7. Phoebe Okowa. "Environmental Justice in Situations of Armed Conflicts', in Environ-mental Law and Justice in Context, Ed. Jonas Ebbesson & Phoebe Okowa, Cambridge University Press, Cambridge, 2009.
8. Report of the Conference of Committee on Disarmenent, Understanding Relating to Article I of ENMOD, U.N. GAOR, 31rd Sess. Supp. No. 27 A/31/27. Available at: http://www.icrc.org/ihl.nsf/FULL/4607OpenDocument (accessed: 05/05/2022).
9. Sandoz, C. Swinarski, B. Zimmermann, Commentary on the Additional Protocols of 8 June, 1977, to the Geneva Conventions of 12 August, 1949, at 416-417, 1987'den nakleden Roman REYHANI, Protection of the Environment During Armed Conflict, Missouri Environmental Law and Policy Review, Sayı 14, 2007.
10. The Convention on the prohibition of Military or Any Other Hostile Use of Environmental Modification Techniques (ENMOD), G.A. Res. G.A. Res. 31/72, U.N. GAOR 31st Sess., Supp. No. 39, U.N. Doc. A/31/39 (Dec. 10, 1976).


**Джалил Х.А.,**
**Дуньямалыев Н.Н.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.67.57-65**
**УДК: 341**

## Международно-правовые проблемы охраны окружающей среды в условиях вооруженного конфликта

**Аннотация**: Вооруженные конфликты и войны затрагивают все сферы человеческой деятельности и окружающую ее среду. Вооруженные конфликты негативно сказываются не

♦ **Джалил Хафиз Афиг оглы** - магистрант Государственной академии управления при Президенте Азербайджанской Республики (Азербайджан). E-mail: hafizcelil99@yahoo.com
**Дуньямалыев Нурлан Нуреддин оглы -** магистрант Государственной академии управления при Президенте Азербайджанской Республики (Азербайджан). E-mail: nurlandunyamaliyev99@gmail.com

только на жизни и здоровье людей, но и на флоре и фауне зоны конфликта - растениях и животных, воде, почве и воздухе, словом, на экологической системе. Нарушения в экологической системе приводят к человеческим проблемам.

В силу всего этого охрана окружающей среды во время вооруженного конфликта является актуальной проблемой для двух областей общего международного права - международного гуманитарного права и международного права окружающей среды. Принят ряд международно-правовых документов по международно-правовой охране окружающей среды. В статье анализируются последствия вооруженных конфликтов на окружающую среду, особенности международно-правовых документов, обеспечивающих охрану окружающей среды.

**Ключевые слова:** война; вооруженный конфликт; окружающая среда; международное гуманитарное право; международное экологическое право.

## Библиография

1. Ahmet Hamdi Topal. Silahlı Çatışmalarda Doğal Çevrenin Korunması. Milletlerarası Hukuk ve Milletlerarası Özel Hukuk Bülteni. Milletlerarası hukuk ve milletlerarası münasebetler araştırma ve uygulama merkezi. Yıl: 29 / Sayı 1-2 / 2009 (на турецком языке).
2. Гусейнов Л. Международное право. – Баку: Ганун, 2012. – 368 с. (на азерб. яз.).
3. Hüseyin Pazarcı Prof. Dr. Uluslararası hukukta çevrenin savaş sırasında korunması // Ankara Üniversitesi SBF Dergisi. 1992; 47(01) (на турецком языке).
4. Мамедов Р., Мамедов Х. Незаконная и противоправная деятельность Армении на оккупированных территориях Азербайджана с точки зрения современного международного права. – Баку: MM-S, 2017. - 260 с. (на азерб. яз.).
5. Tarık Ak. Günümüzün savaşlarında çevre konusunda ilişkin bir değerlendirme. İstanbul Aydın Üniversitesi Dergisi 32, (2016) (17-26) (на турецком языке).
6. Final Report to the Prosecutor by the Committee Established to Review the NATO Bombing Campaign Against the Federal Republic of Yugoslavia, Parag. 15, 17, 25. http://www.icty.org/sid/10052. (дата обращения: 05.05.2022).
7. Phoebe Okowa. Environmental Justice in Situations of Armed Conflicts', in Environ-mental Law and Justice in Context, Ed. Jonas Ebbesson & Phoebe Okowa, Cambridge University Press, Cambridge, 2009.
8. Report of the Conference of Committee on Disarmenent, Understanding Relating to Article I of ENMOD, U.N. GAOR, 31rd Sess. Supp. No. 27 A/31/27. http://www.icrc.org/ihl.nsf/FULL/4607OpenDocument (дата обращения: 05.05.2022).
9. Sandoz, C. Swinarski, B. Zimmermann, Commentary on the Additional Protocols of 8 June, 1977, to the Geneva Conventions of 12 August, 1949, at 416-417, 1987'den nak-leden Roman REYHANI, "Protection of the Environment During Armed Conflict, Mis-souri Environmental Law and Policy Review, Sayı 14, 2007.
10. The Convention on the prohibition of Military or Any Other Hostile Use of Environmental Modification Techniques (ENMOD), G.A. Res. G.A. Res. 31/72, U.N. GAOR 31st Sess., Supp. No. 39, U.N. Doc. A/31/39 (Dec. 10, 1976).